**«Azərbaycanın vergi jurnalı»nın üçüncü nömrəsi çapdan çıxmışdır**

Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan «Azərbaycanın vergi jurnalı»nın «Rəsmi» rubrikasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin BMT-yə üzv qəbul olunmasının 20-ci ildönümü və 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə mayın 3-də Nyu-Yorkda təşkil edilmiş rəsmi qəbulda, ulu öndər Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8-illiyi münasibətilə mayın 10-da keçirilmiş təntənəli mərasimdə, 28 May - Respublika Günü münasibətilə mayın 25-də «Buta» sarayında təşkil olunmuş rəsmi qəbulda, 19-cu Beynəlxalq «Xəzər neft-qaz, neftayırma və neft kimyası» sərgisinin açılış mərasimində çıxış və nitqlərinin qısa xülasəsi, iyunun 26-da İstanbulda Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında qısa adı TANAP olan Trans-Anadolu Qaz Boru Kəməri üzrə Hökumətlərarası Müqavilənin imzalanması mərasimi haqqında məlumat verilmişdir. Vergilər Nazirliyinin ulu öndər Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə keçirdiyi tədbirlər, o cümlədən «Azərbaycanın vergi jurnalı»nın magistrantlar arasında keçirdiyi referat yazılışı üzrə ikinci respublika müsabiqəsinin yekunları haqqında məlumatlar da jurnalda yerləşdirilmişdir. Əhali ilə nağdsız hesablaşmaların aparılması, POS-terminalların quraşdırılması istiqamətində görülən işlərlə bağlı Vergilər, İqtisadi İnkişaf, Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları nazirliklərinin, eləcə də Mərkəzi Bankın rəhbərlərinin, bank və biznes sektoru nümayəndələrinin iştirakilə mayın 16-da Vergilər Nazirliyində keçirilmiş toplantı haqqında ətraflı məlumat dərc edilmişdir. «Əməkdaşlıq» rubrikasında isə MDB üzvü olan ölkələrin vergi xidməti rəhbərlərinin Koordinasiya Şurasının Bakıda keçirilmiş 19-cu iclası barədə məlumat yer almışdır. 15 iyun - Milli Qurtuluş Günü münasibətilə jurnal Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Ə.Babayevin «Azərbaycanın davamlı inkişafının möhkəm təməli» adlı analitik məqaləsini dərc etmişdir. «Aktual» rubrikasında oxucular Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun yeni dövrdə müstəqil auditin qarşısında duran yeni vəzifələr barədə fikir və mülahizələri ilə tanış ola biləcəklər. Ənənəvi «Müsahibə» rubrikasında Elşən Bağırzadənin budəfəki həmsöhbəti Türkiyə Respublikası Bakı Böyükelçiliyinin ticarət məsələləri üzrə baş müşaviri cənab Qazi Bilgindir. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin yaradılmasının 10-cu ildönümü münasibətilə Mərkəzin fəaliyyətinə həsr olunmuş məqalə də jurnalın bu nömrəsində dərc edilmişdir. Nömrədə bir necə qanunvericilik sənədi ilə də tanış olmaq mümkündür. Jurnalın elmi məqalələr blokunda AMEA İqtisadiyyat İnstitutunun direktoru, prof. İ.Alıyev və həmin institutun elmi işçisi, i.e.f.d. S.Səmədərovun «XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin vergi mükəlləfiyyətləri ilə əlaqədar dəyərləndirmələri», dos. İ.Seyfullayevin «Mənfəət vergisinin müəssisələrin innovasiya fəaliyyətinə təsirinin tədqiqi», i.e.f.d. P.Rzayevin «İqtisadiyyatın tənzimlənməsində xüsusi vergi pejimlərinin əhəmiyyəti», i.e.f.d. Ş.Quliyevin «Vergilərin məcmu tələbə və məcmu təklifə təsirinin öyrənilməsi», prof. E.Hacızadə və k.e.f.d. F.Hüseynovun «Nüvə energetikası: ekoloji-iqtisadi dəyərləndirmələr və inkişafin perspektivləri», prof. İ.Kərimlinin «Azərbaycanın geoiqtisadi inkişaf konsepsiyası və milli iqtisadi mənafelər problemi», Vergilər Nazirliyinin Tədris Mərkəzinin dosenti Q.Tanrıverdiyevin «Ödəməmələr probleminin yaranmasının amillər üzrə makroiqtisadi təhlili», ADİU-nun magistrantı P.Məmmədovanın «Türkiyədə gizli iqtisadiyyat», Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı - magistrant referatının yazılışı üzrə ikinci respublika müsabiqəsinin qalibi Y.Abdullayevanın «Azərbaycan Respublikasının vergi siyasəti və onun modernləşməsi istiqamətləri» başlıqlı məqalələri yerləşdirilmişdir: Jurnal «Elm korifeyləri» rubrikasında oxuculara bu dəfə 1990-cı ildə «Maliyyə nəzəriyyəsində yenilikçi tədqiqatlara görə» iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş ABŞ iqtisadçıları Harri Markovits, Merton Miller və Uilyam Şarp barədə məlumat verir.